İMADƏDDİN NƏSİMİ - 650

NƏSİMİ İLİ ÇAĞDAŞ ƏRƏB TƏDQİQATLARINDA

(əvvəli 9 avqust tarixli sayımızda)

Feysal Xratç Əbdülfəttah Rəvvas Qələçinin İmadəddin Nəsimiyə həsr olunmuş kitabı haqqında olan məqalədə Qələçiyə istinadən şairin həyatı, dünyagörüşü, poeziyası, fəlsəfi görüşləri haqqında da dolğun məlumatlar təqdim edir: "Əl-Nəsimi kosmik mahiyyətdə dərk edilən dünya şöhrətli şairlərdəndir. Onun öz dünyası var. Bizi cazibəsində saxlayan öz dünyası. Onun dünyası - İnsandır. O özünü bu əqidəsinə həsr etdi və öz azadlığı və ali səviyyəsi üçün mübarizə apardı. İnsan siması həqiqətin ifadəsidir. Biz bunu dərk etmək üçün insana şüur verilmişdir. Onun poeziyasında iki aspekt diqqəti cəlb edir: emosionallıq və ruhi həyəcandan və bunların harmoniyası bu şeiriyyətin unikal sirli nəğməsidir. İmad əl-Din Nəsimi fəlsəfə, astronomiya, məntiq, riyaziyyat və təbiət elmləri üzrə kamilləşdi. Ərəbcə, farsca dili axıcı idi. Üç dildə yazmış və ədəbi yaradıcılıqda öz dili olaraq türkcə yazmağı bacarmış və on mindən çox "ev" əsər yaratmışdır. Nəsiminin fars dilində olan divanı təxminən beş min "ev"dir. Ərəbcə şeirləri çox cüzidir. Ola bilər ki, itmişdir və ya dağıdılmışdır" .

Burada haşiyə çıxaraq qeyd etmək istərdik ki, Azərbaycan elmi mətbuatında Əbdülfəttah Rəvvas Qələçinin adını ilk dəfə akademik Bəkir Nəbiyev xatırlatmışdır. Belə ki, akademik Bəkir Nəbiyev bu məqalənin müəllifinin - Xatirə Quliyevanın 2005-ci ildə Nəsimi sevgisi ilə yaratdığı ""Nəsimi" Suriya-Azərbaycan Dostluq Cəmiyyəti" İctimai Birliyinin mətbu orqanı "Cahan+" qazetinə "Nəsimi kəlamının işığında" (Cahan+ qəzeti, 11 dekabr. 2009-cu il) məqaləsini təqdim etmiş və bu məqalədə şairi ərəb dünyasında əbədiləşdirən Qələçi və kitabı haqqında məlumat vermişdir. (Elə akademik Bəkir Nəbiyev 2009-cu ildə həmin məqaləni bir qədər genişləndirməklə kitab çap etdirmişdir).

Bu yerdə dəyərli ziyalımız İmamverdi Həmidovun Qələçinin "Yaqut ə-Hələb İmadəddin Nəsimi" kitabından Bəkir Nəbiyevin xahişi ilə məqalə üçün etdiyi tərcümə mətnini də yada salmağı özümüzə borc bilirik. Beləliklə, akademik Bəkir Nəbiyevin şərhində həmin kitab haqqında məlumatı nəzərdən keçirək: "Onun (İmamverdi Həmidov nəzərdə tutulur - X.Q) qənaətinə görə, Qələçinin kitabını ərəb ölkələrində böyük Azərbaycan şairi haqqında nəşr olunmuş ilk sanballı əsər hesab etmək olar. Burada Nəsiminin yaşadığı dövrün tarixi icmalı, şairin həyatı, təsirləndiyi qaynaqlar, qəzəllərinin əsas mövzusu, Nəsimi və hürufiliyə dəvət, Nəsimi şeirində insan kimi problemlərdən bəhs edilir".

Ancaq burada bir ziddiyyət vardır. Belə ki, Feysal Xratç Əbdülfəttah Rəvvas Qələçinin İmadəddin Nəsiminin təhlilləri haqqında bəhs edərkən şairin inancına və məğrur şəxsiyyətinə görə faciəli ölümə məhkum edilməsini göstərdiyi halda, akademik Bəkir Nəbiyevin məqaləsində bu məsələ "Müəllifin qənaətlərinə görə, Nəsiminin təqib edilməsi və cəzalandırılması, böyük mütəfəkkirin edamının səbəbi dini deyil, siyasi baxışlarla bağlı olmuşdur"- kimi şərh olunmuşdur.

Diqqət etdikdə bu versiya ilə biz Səadət Şıxıyevanın tədqiqatlarında da qarşılaşırıq. Məsələn, fəlsəfə doktoru Səadət Şıxıyevanın **"O əsəri əlimə götürəndə dedim, Nəsiminin deyil..." - Sirlər açılır/Brifinq"** məqaləsində yazır ki: "Əslində Nəsiminin bu qədər qəddarcasına öldürülməsi tamamilə siyasi niyyətlərdən qaynaqlanır və bunun kökündə hər hansı məzhəb və ya dini məzmun dayanmır. Misir sultanı Nəsiminin nüfuzunun güclənməsindən çəkinir və onun siyasi iqtidar sahibləri ilə ittifaqından qorxur. Sultan heç edam hökmünü də birdənbirə vermir. Nəsimi aylarla həbsxanada qalır. Həbsxana günləri onu üzür və sonda sultana müraciət edir. Nəsiminin 3 dildə qəsidəsi var, həm mədhiyyə, həm də həbsiyyə xarakterlidir. Həbsxanada çəkdiyi əzablara görə sultana müraciət edir ki, neçə aydır həbsxanada qalmışam, nə olur-olsun, bunlara son verilsin". Əlbəttə, hər iki Nəsimi tədqiqatçısının, sözsüz ki, əsaslandığı mənbələr vardır və müqayisəli təhlillər labüddür.

Bu istiqamətdə diqqətçəkən bir məsələ də mənim müşahidələrimə görə, Nəsiminin dəfn olunduğu qəbiristanlıqdakı məsciddə minarənin olmaması ilə bağlıdır. Şəxsən mən dəfələrlə Nəsimini ziyarət etdikdə başqa məscidlərin minarələrindən ucalan Azan səsinə dalıb qısqanclıq hissi keçirmişəm. Əcəba Suriya Ərəb İslam Dövləti, Hələb onun tarixi mərkəzlərindən biri, nə əcəb bu məsciddə minarə yoxdur? Həm də belə tarixi məscid-abidədə minarənin olmamasının əsası, səbəbi nə ola bilər?! Bəlkə bu elə şairin qətlinin səbəbi ilə bağlı məsələdir? Həmin qəbiristanlıqda Nəsimi kimi onlarca, bəlkə də yüzlərlə insan dəfn olunmuşdur və mənbələrdə bu qəbiristanlıq təsəvvüf əhlinə aid edilir. Bu, Hələbdəki bütün təsəvvüfçülərin ümumi "cəzası" ola bilərmi? Düşündürücü faktdır. Bundan başqa, Nəsimimizi dəfələrlə ziyarət etmiş, o ətrafda yaşayan və ümumiyyətlə, şair haqqında ərəb düşüncəsi ilə maraqlanmış bir azərbaycanlı olaraq Hələbin çox müxtəlif "alimlərindən", "siyasilərindən", hətta sadə tacirlərindən belə şairimizin təsəvvürlərdə "şəkk edən, asi" kimi qaldığı haqda fikirlər eşitmişəm. Hətta bəsitliklə firona da bənzədiblər. Hələ Hələbin ən görməli yerində olan və turistlərin sözsüz olaraq gəzibdolaşıb yolunun üstünə çıxan Nəsimimizin məqamını həsrətlə ziyarət etdikdə, nə gizlədim, bəzi mövhumatçı hələblilər, əcaib nəzərlərlə seyr edib, Allahsızsız?- soruşanları da olub.

Onlara İmadəddin Nəsiminin Allahsız olmadığı, hətta hürufiliyin elmi-fəlsəfi mahiyyətindən irəli gələrək Qurani-Kərim kitabını dərindən bildiyini, dini inancını poetik məzmunda gözəl təsvir etdiyini, hətta şiə təriqətinə mənsubluğunu təsdiqləyən şeirlərini anlatmaqla, haqqında olan rəvayətləri yada salmaqla şairin dərkinə çalışmağımız bəzən dəyişdirici olub, bəzən nəticəsiz. Amma əsas məsələ, kütləvi olaraq Nəsiminin siyasətə "qarışdığını" və buna görə dərisinin soyulduğunu həmsöhbət olduğumuz ərəb düşünənləri içərisində heç kim bilməyib və deməyib.

Bu məqamda elə ərəb tədqiqatlarından Xəlil Əli Heydərin **"Hələbdə bir şair ... yaşayır" məqaləsində** qeyd olunan bir rəvayəti diqqətə çatdırmaq yerinə düşər:

"Hələbdəki təxribatçılardan birinin Quranın bir səhifəsini cırdığı və onu zibilliyə atdığı deyilir. Hakim Nəsimini mühakimə edərkən şairdən soruşdu: Qurana uzanan əlin cəzası nədir? O cavab verdi: "Kəsilməlidir!".

Bu bir kəlmə söz Nəsiminin Qurani-Kərimə də, İslam dininə, deməli Allaha inamının mükəmməl olduğunu təsdiqləyir. Lakin 650 illik bir div zaman hələ də bəzi hələblilərin gen yaddaşında Nəsimini həmin rəvayətin hakimi kimi "cəzalandırır"...

Eləcə də Məhəmməd Mehdi Bayat adlı müəllifin **"İşıq"** - saytında **"Nəsimi əl Bağdadi - ilahi sevginin şəhidi"** məqaləsində biz Nəsiminin dövrlə ayaqlaşmayan İnsan fəlsəfəsi haqqında və eləcə də yuxarıda qeyd etdiyimiz faciəvi sonluğu ilə bağlı geniş təhlillərlə tanış oluruq. Məqalə müəllifi Nəsiminin dərisinin soyulması rəvayətini həqiqətdən uzaq, şairin yaddaşlarda daha əfsanəvi yaşarılığının bir misalı kimi izah edir.

Məlumdur ki, Azərbaycan nəsimişünaslığında şairin qələndəriliklə bağlı olması faktı qeyd olunsa da, onun bekdaşiliklə bağlılığı haqqında geniş məlumatlar diqqəti cəlb etmir. Məsələn, S.Şıxıyeva yazır ki, "Nəsimi mədrəsə təhsilini bitirəndən sonra bir müddət din alimi kimi fəaliyyət göstərir, ondan sonra hürufiliyə qədər qələndərilik təriqətinə daxil olur, istər türkcə, istərsə də farsca şeirlərində buna işarələr var" **(Nəsimi iki dəfə evlənib, diri-diri soyulmayıb, oğlu və qızı... Sirlər açılır/Brifinq).** Ancaq Ə.R.Qələçinin "Hələbin yaqutu İmadəddin Nəsimi" kitabından İmamverdi Həmidovun tərcüməsi vasitəsilə onun bu mənsəbə (bəkdaşiliyə) bağlı olduğu qeyd edilir. Suriya tədqiqatlarından digər birində, yuxarıda da nəzərdən keçirdiyimiz **"Əli İmadəddin Əl Nəsimi" məqaləsində də göstərilmişdir ki,** "Nəsimi Bekdaşilik təriqətinin yeddi müqəddəs şairindən biridir". Başqa bir məqalədə Nəsiminin edam rəvayətindən birində "Bekdaşian dərisini 7 qapı apardı" fikri vurğulanır ki, bu ehtimal ki, bu şairin Bekdaşiliyə bağlı olduğunu bilavasitə təsdiq edir.

Haşiyə çıxaraq söz ustadımız İmadəddin Nəsiminin faciəvi ölümü ilə bağlı bir rəvayəti və onun qaynaqlandığı real faktı da qeyd etmək istəyirəm. Belə ki, Nəsiminin Hələbdəki məqbərəsinə çox bənzəyən bir türbəsi də Türkiyənin Qaziantəp şəhərində, Şəhidkamil rayonunun Aktorpaq Bələdiyyəsi ərazisində vardır. **"Türk tarih.gen.tr form"** adlı saytda yayımlanmış **"Nəsimi Kimdir? (İmadəddin Seyyid Nəsimi) Şeirləri və Əsərləri..."** məqaləsindən oxuyuruq: "Həzrət Nəsimi Bağdadda onu qəbul etməyənlərin iftirasına uğramışdır. Rəvayətə görə, Qurani-Kərimi ayaq altına aldığı iddia edilmiş və bunun üzərinə dərisi üzülərək edam olunması hökmü verilmişdir. Bu cəza icra olunarkən Nəsimi Həzrətləri heç bir ağrı hiss etməmişdir. Fəqət məsciddə Quran oxuyan müəzzinin barmağına qan sıçramış, bunun Nəsimi Həzrətlərinin murdar qanı olduğu iddia edilərək müəzzinin barmaqları sırayla kəsilmişdir. Nəsimi Həzrətləri bundan sonra, silkənərək qalxmış, boğazına qədər üzülən dəri vücuduna geri yapışmış və başını alıb yollara düşərək Aktorpaq bələdiyyəsinə (ərazisi nəzərdə tutulur-X.Q)) gəlmişdir. Xalq Nəsimi Həzrətlərini salamlamış və diqqət göstərmiş, Nəsimi Həzrətləri də onların salamını alıb qarşılık verdikdən sonra oradaca gözdən itmişdir. Türbəsi qeyb olduğu yerdədir.

Fikrimizcə, rəvayətlər arasında bu versiya ona görə daha inandırıcıdır ki, Hələblə Qazıantəp arasında məsafə o qədər də uzaq deyil və şairin həyranları, əqidə tərəfdaşları onu nadanların davam edən vəhşətlərindən qurtarmaq üçün qaçıra bilərdilər. Ordan da qeyb olması yenə düşmənlərindən qorumaq və hardasa son nəfəsində də olsa, ona kömək etmək məqsədinə uyğun gəlir.

Ərəb dilində olan tədqiqatlar sırasında İraq türkmən yazarlarının Nəsimi təhlilləri çoxluq təşkil edir. Bu yazılarda əsasən, əslində birmənalı olaraq Azərbaycan şairi, Şamaxıda doğulmuş İmadəddin Nəsimi Bağdad əsilli və Türkmən şairi kimi təqdim olunur. Ərəb dünyası üçün Türk, türkmən kimi qəbul edildiyindən, elə Suriyada bu gündə yaşayan çoxsaylı Türkmən əhalinin türk olduğu faktı 14-cü əsrdə taleyin hökmü ilə ərəb torpaqlarına gələn, Hələbdə əbədiliyə qovuşan Nəsimimizin Türk ailəsinin türkmən qolundan deyil, məhz digər bir qol - Azərbaycandan olduğunu təsdiqləyir.

Çox qəribə təəssürat yaradan xarakterik bir mənbə - Türkmən Televiziyasının "Yaşayan şairlər" adlı verilişində bütün proqramı Azərbaycan filmi "Nəsimi"-nin (filmin adı çəkilmədən) səssiz fraqmentləri üzərində quran müəllif Hassan Murad oğlu Azərbaycan şairi İmadəddin Nəsimini "İraq mənşəli böyük Türkmən şairi məşhur Emad Eddin (Nesimi)" kimi təqdim etsə də, Türkmənistanla müqayisədə Azərbaycanda dünya Söz səltənətinin bu böyük simasına böyük diqqəti nə qədər qısqanclıqla ötəri də olsa, yüksək qiymətləndirir. Lakin Nəsiminin əsl vətəni Azərbaycan, onun Azərbaycan dilli şair, mütəfəkkir olduğunu nəinki xüsusilə qeyd etmir, əksinə, Azərbaycanın adını Nəsiminin getdiyi ellər sırasında çəkməklə ədalət, həqiqət şairi ilə bağlı tarixi həqiqəti vurğulamaqla kütləyə həqiqətdən uzaq məlumat ötürmüş olur.

Onu da qeyd edək ki, bu verilişdə Nəsiminin adlarından biri kimi "Muxlisi" göstərilir. Bu adla Nəsimi tədqiqatlarında rastlaşmırıq. Ola da bilər bu ad-təxəllüs Bağdad şəhəri yaxınlığında yerləşən Nəssimi şəhərindən çıxmış başqa şairlərdən birinə aiddir.

Bundan başqa, "Yaşayan şairlər" verilişində Nəsiminin Divanının olmaması bildirilir. Halbuki, Azərbaycanda Nəsiminin divanı hələ 1972-ci ildə nəşr olunub.

Bu sadalananlar 650 il əvvəl doğulduğu Azərbaycan torpaqlarından öz kütlədən fərqli fərd-şəxsiyyət düşüncələrinə görə yurd-yurd, el-el didərgin düşüb, nəhayət, sığındığı və qətl edildiyi müsəlman-ərəb dünyasında İmadəddin Nəsiminin dərki və dəyərlənməsinə yaxşı misaldır. Fikrimizcə, ucsuz-bucaqsız virtual aləm xəzinəsindən əldə etdiyimiz bu yazıları önə çəkib Nəsimi tədqiqatçılarının, həmçinin geniş nəsimişünaslar auditoriyasının diqqətinə çatdırmağımızla həm də ulu söz sahibimizin irsi bir daha təravətlənmiş oldu.

Nəhayət, çağdaş ərəb dünyası və Nəsimi İli hadisəsinin şairin əbədi ünvanı Suriyada əks-sədası haqqında.

Suriyanın asiaelyoum.com - informasiya agentliyi 12 yanvar 2019-cu il tarixdə **"Böyük Azərbaycan şairi İmadəddin Nəsimi İLİ"** başlıqlı yazı yayımlamışdır. Məlumat xarakterli bu yazıda qeyd olunur ki, "Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişaf yekunlarına həsr olunmuş iclasında 2019-cu ilin Azərbaycan şairi İmadəddin Nəsimi İli olacağını elan etmişdir: Bu il Azərbaycanın dahi şairi İmadəddin Nəsiminin 650 illiyini qeyd edəcəkdir.

"Böyük Azərbaycan şairi İmadəddin Nəsimi İLİ" yazısı Nəsiminin sonu və rəvayətlərin ən nikbin sonluğu olan məğrur şairin sözləri ilə bitir: "Rəvayətlər var ki, edama başladıqlarında şairin üzünü soyarkən, hakim istehza ilə, iddia etdiyiniz kimi haqsız, "üzünüz niyə solmağa başladı?", -soruşmuş, Nəsimi, "Günəş hər zaman yenidən parlamaq üçün qürub edir", - deyərək cavab vermişdir.

Xatirə QULİYEVA,
Fəlsəfə elmləri doktoru,
"Nəsimi" Suriya-Azərbaycan Dostluq Cəmiyyəti" İctimai Birliyinin təsisçisi və sədri.